**UOT 1**
**https://doi.org/10.59849/2710-0820.2024.2.161**

**Şölət Zeynalov**
*fəlsəfə üzrə fəlsəfə doktoru, dosent.*
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu,*
*sholet@mail.ru*
*ORCID: 0000–0003–2509–1159*

**Nərgiz Zeynallı**
*AMEA Fəlsəfə və Sosiologiya İnstitutu, "Müasir fəlsəfə problemləri"*
*şöbəsinin kiçik elmi işçisi*
*nargizzeynalli41@gmail.com*
*ORCID: 0009–0007–2378–0272*

# ULU ÖNDƏR H.Ə.ƏLİYEVİN "SOVET DÖVRÜ PROBLEMİNƏ" RASİONAL MÜNASİBƏTİ – TARİX VƏ İDENTİKLİK MƏSƏLƏLƏRİ

***Açar sözlər:*** *Lider, milli maraqlar, tarixə baxış, "Sovet dövrü", nəzəri yanaşmalar, dialoq.*

**Giriş:** Hər bir dövlətin tarixində müəyyən ziddiyyətli mərhələlər olur. Sivilizasiyaların və dövlətlərin tarixi təcrübələri göstərir ki, əslində liderlərin, tarixi şəxsiyyətlərin idarəetmə və dövlətçilik təcrübəsi, siyasi fəaliyyəti, xarizması ilə dövlətlər öz mövcudluğunu davam etdirir, zəmanənin yaratdığı müxtəlif təzyiqlərə cavab reaksiyasında olurlar. Lakin tarixin fəlsəfi interpretasiyası sübut edir ki, hər bir dövlətin taleyində güclü lider, siyasi xadim, dövlətçilik fəlsəfəsini və idarəetmə sənətini mahir şəkildə təsbit edən dövlət xadimləri o qədər də çox deyildir və müasir Qərbin hazırkı dinamikası da sübut edir ki, elmi-texniki tərəqqiyə baxmayaraq dünyada baş verən qlobal dünya böhranın kökündə lider çatışmazlığı dayanır.

Tarix sübut edir ki, istənilən xaosdan, ziddiyyətdən, qarşılıqlı münaqişələrdəki anlaşılmazlıqlardan çıxmaq üçün bir konsensus yolu da mövcuddur. Fakt budur ki, tarixən böyük siyasi xadimlər dialoqdan çıxış edərək öz cəmiyyətləri və dünyada istər daxili idarəetmədə, dayanıqlı dövlət quruculuğunda, istər ətraf dövlətlər və cəmiyyətlərlə qonşuluq münasibətlərində və qlobal nizamın təmin olunma işində bir konsensus nöqtəsi də tapmışlar. Təsadüfi deyildir ki, personalizm nəzəriyyəçilərinin fikrinə görə "ilahi mənbədən, ilahi məqsədə doğru gedən tarix" məhz həm də şəxsiyyətlərin tarixidir və sivilizasiya tarixin yaranmasında bilavasitə şəxsiyyətlərin rolu əvəzsizdir. Bu baxımdan müasir tarixin fəlsəfi interpretasiyası sübut edir ki, ABŞ tarixində C. Vaşinqton, Türkiyə tarixində Atatürk, Almaniya tarixində Bismark, Azərbaycan tarixində Ulu öndər Heydər Əliyev məhz tarixin fəlsəfəsini, onun *"təyinatı və məqsədlərini"* [6] dərindən anlayan və tarixə yön verən şəxsiyyətlərdən olmuş və yüz illər boyunca belə də olaraq qalacaqlar.

Tarixi faktlar sübut edir ki, xarici təzyiqlər nəticəsində Azərbaycan xalqının taleyi son üç yüz ildə əvvəlki əsrlərlə müqayisədə son dərəcə keşməkeşli və ziddiyyətli məqamlarla dolu olmuşdur. Xüsusilə XX əsr tariximizdə xüsusi önəm daşıyan ziddiyyətli əsrlərdən biri kimi xarakterizə edilməkdədir. Bu əsrdə xalqımız dəfələrlə soyqırımına uğramış, müxtəlif zamanlarda repressiyalara, işğala, faciəvi stuasiyalara məruz qalmışdır. Lakin bütün bunlara baxmayaraq o, həmçinin, bu əsrdə öz tarixi dövlətçilik təcrübəsinə əsaslanaraq öz milli varlığını, identikliyini böyük mübarizələrdən, ölüm-qalım mücadiləsindən keçirərək qorumuş, nəticə olaraq müstəqilliyini əldə etmişdir. Fakt budur ki, bu mücadilələrdə Azərbaycan xalqı yüz minlərlə qurban versə də, son anda öz liderlərinin, siyasi xadimlərinin uzaqgörənliyi və misilsiz xidmətləri sayəsində tam müstəqil bir dövlət kimi mövcudluğunu bərpa etmişdir.

Xüsusi qeyd edilməlidir ki, bu baxımdan XX yüz ilin tarixi dinamikası fəlsəfi anlamda nəzərdən keçirilərkən qeyd-şərtsiz məlum olur ki, Azərbaycan xalqının dövlətçilik tarixində misilsiz uğurlar qazanmasında və xalqın ideya baxımından "millətləşmə" və "dövlətləşmə" təmərküzləşməsində Heydər Əliyev ideyaları və fəaliyyəti, strategiyası qədər ikinci bir ümummilli fenomen və hadisəni təsəvvür etmək mümkün deyildir. Baxmayaraq ki, bəzi məqamlarda tarixin fəlsəfi anlamını dərk etməyən şəxslər tərəfindən "sovet dövrü" kimi xarakterizə olunan dövr – az qala bir əsrə bərabər olan tariximiz yeri gəldi-gəlmədi dövlətçilik tariximizdən silinməyə cəhd edilir. Lakin bir faktı təkzib etmək mümkün deyildir: Böyük şəxsiyyətlər tarixin mehvərini yaradan, ona yön verən, gələcəyi aydın şəkildə konstruksiya edən dahilər olduğundan onların strateji hədəfləri aydın və işıqlı olur. Bütün bunlar nəzərə alınaraq məqalədə Ulu öndərin istər birinci "sovet dövrü", istər ikinci müstəqillik illəri ilə bağlı dövlətçilik fəaliyyətinin ikinci epoxasının kiçik bir hissəsi, – bu yolda həyata keçirdiyi prinsipial qərarları, mübarizəsi, tarixə obyektiv baxışları, ideyalarının praktik təcəssümü tədqiqata cəlb olunmuşdur.

44 günlük Vətən Müharibəsi və 19 sentyabr 2023-cü il tarixləri bir daha sübut etdi ki, dövlətin Liderinin milli strategiyası, yüksək zəkası, "tarixin təyinatı və məqsədlərinə" baxışı, dönməz iradəsi, milli təfəkkürü *milli maraqlara, milli ideyaya gələcəyə* düzgün hesablananda o, – dövlət sözün həqiqi anlamında müstəqil olur, suverenliyini bərpa edir, qlobal anlamda qəbul olunur, eyni zamanda təhdidlərə baxmayaraq həm ərazi bütövlüyünü, həm də beynəlxalq hüququn təmin edilmə vəzifəsini uğurla həyata keçirə bilir.

1. **Tarixə nəzəri baxış – ideologiya problemi.** Ulu öndərin tarixə baxışı və dövlətçilik paradiqmasının qlobal strategiyasından bəhs olunarkən xüsusi qeyd etmək lazımdır ki, Heydər Əliyevi fenomeninin bütövlükdə dövlətçilik və siyasi irsi nəzəri anlamda mənalındırılarkən onun fenomenal bir şəxsiyyət olması danılmaz fakt kimi həmişə siyasət, filosof, elm, mədəniyyət, sənət adamlarını, iqtisadçıları, sosioloq, KİV nümayəndələri və b. mütəxəssisləri heyrətə gətirir. Fakt odur ki, əksər siyasət, elm, mədəniyyət və b. tanınmış ictimaiyyət nümayəndələri tərəfindən istər Heydər Əliyevin 1969-cu ilə qədərki təhlükəsizlik orqanlarında olan fəaliyyəti, istər birinci Sovet və ikinci Müstəqillik illərində ölkəmizə rəhbərlik dövründəki misilsiz idarəetmə strategiyası, onun dünya şöhrətli bir siyasətçiyə çevrlməsi yolu hər bir dövlət bşçılarına qismət olmayan zirvə kimi xarakterizə olunmaqdadır. Təsadüfi deyildir ki, bu misilsiz dövlətçilik yolunu siyasətçilər, elm adamları, mədəniyyət və ictimai xadimlər, sadə xalqın nümayəndələri "Xilaskar", "Qurtuluşun banisı", "Müstəqilliyin memarı", "Heydər baba", "Dövlətçiliyin memar", "Dahi siyasətçi", "Müdriklik simvolu", "Ömrünü xalqa həsr edən dahi", "Mahir strateq" kimi obrazlarla, epitetlərlə qiymətləndirməkdə tamamilə haqlıdırlar. Dahi xadimin siyasi irsi və dövlətçilik fəlsəfəsinə nəzəri və praktiki olaraq cild-cild elmi əsərlərin həsr edilməsi isə tamamilə məntiqdir və onun elmi-fəlsəfi istiqamətdə interpretasiyası dövlətçilik tariximiz üçün bütün dövrlərdə zəruridir. Çünki burada söhbət həm də ondan gedir ki, Azərbaycan xalqı tarixi şüur baxımından yetkin və sivilizasion xalqdır o, müstəqilliyin, dövlətçiliyin, tarixdə varoluşun, liderliyin, ədalətli dövlət xadimi və xalq birliyinin fəlsəfəsini gözəl anlayır, onun qan yaddaşında vətən, dövlət, milli birlik hissi, məfkurəsi nəsilbənəsil transformasiya edilərək ötürülür. Təəssüf ki, XIX əsrin əvvəllərində ölkənin ikiyə bölünməsi ilə bu ənənədə qırılma yarandı və az qala iki əsrə bərabər bir müddət ərzində xalqın qan yaddaşından dövlətçilik məfkurəsini imperialist qüvvələr silməyə çalışdılar. Bu baxımdan sovetlər dönəmi də istisna deyildir. *"Yaxud iddia etmək olar ki, əslində Sovetlər birliyinin tarixi imperiya siyasətindən imtinası həmişə imitasiya xarakterli olmuşdur. Əksinə Azərbaycan Respublikasının ərazilərinin müxtəlif dövrlərdə, müxtəlif bölgülər adı altında Ermənistana "hədiyyə" verilməsi bəzi qüvvələrin çar siyasətinin davam etdirilməsi kimi də xarakterizə oluna bilər" [7, s. 233].* Lakin Azərbaycanın "qaranlıq dövrünün" də, tərəqqi dövrünün də tarixi göstərdi ki, xalqın qan yaddaşını ən müxtəlif kosmopolit ideologiyalarla onun tarixi kimliyini silib atmaq mümkün deyildir. *"Ona görə də tarixilik kontekstindən baxarkən Azərbaycan Sovet Sosialist Respublikasının*

*üzərindən sükutla keçərək onu "şər imperyasına" xidmət edən subyekt kimi qiymətləndirilməsi qətiyyən yolverilməz hesab edilməlidir. Həmçinin bu dövrdə respublikanın mədəniyyət, ədəbiyyat, incəsənət, siyasət, elm, iqtisadiyyat, sənaye və s. həyatın ən müxtəlif sahələrində çalışan yüzlərlə ziyalılarımız yetişmişdir. S.Vurgun, Mir Cəlal Paşayev, M.İbrahimov, İsa Hüseynov, B.Vahabzadə, M.Araz və b. onlarla böyük şairlərimiz, ədiblərimiz poeziyada, nəsrdə bu və ya digər formada öz milli-mənəvi dəyərlərimizi qorumağa, oyatmağa çalışırdılarsa, bu fəlsəfi fikirdə Heydər Hüseynov, sənayedə Fərman Salmanov, kosmonavtikada Kərim Kərimov timsalnıda özünü yaradıcı və əzmkar xalq qismində təsdiq etdirirdi" [7, s.234].* Bu baxımdan xalqın şüurundan onun mədəni identikliyinin, tarixi kimliyinin silinməsi faktının qarşısının alınmasında dahi şəxsiyyətlərin, ideoloqların, mədəniyyət adamlarının xidməti əvəzsizdir. Ulu öndər Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və siyasi irsi isə bu zirvənin bilavasitə fatehi idi. Obrazlı desək, Heydər Əliyev fenomeni bilavasitə tarixin məhz Azərbaycan xalqına bir misilsiz hədiyyəsi idi. Başqa formada ifadə etsək, son yarım əsrlik tariximiz fəlsəfi kontekstdə interpretasiya olunarkən aydın şəkildə görünür ki, Heydər Əliyev dühası nəinki yaxın tariximiz üçün, suverenliyin bərpası, davamlı inkişaf, milli maraqların təminatı və s. kimi mehvər paradiqmalar və strategiyaların formalaşmasını müəyyən etmişdir, həmçinin, bu mehvər o qədər mahiranə təsbit edilmişdir ki, o yaxın yüzillərin ideya və ideologiya baxımdan Azərbaycan dövlətçiliyinin, xalqının tarixi şüuru və kimliyinin, milli maraqlarının mehvəri olacaqdır.

Aydındır ki, SSR-nin süqut etməsindən sonra "sovet dövrü" problemi tarixşünaslıq və ictimai təfəkkür üçün ciddi sualların da yaranmasını şərtləndirdi. Sonradan nəinki sadə insanlar, hətta mütəxəssislər üçün, obyektiv olaraq qeyd etsək, [o cümlədən, bəzi məqamlarda indi üçün də] bu dövr tam anlamında ziddiyyətli qavranılmaqda idi. Məsələn, bəziləri ümumiyyətlə, "sovet dövrü"-nün üstündən birmənalı xətt çəkərək onu tarixin qaranlq arxivinə göndərmək istəyir, həmin dövrdə yaşamış, yaratmış sənət adamları, mədəniyyət və dövlət xadimlərini "kommunist damğasıyla" işarəyələrək tarixə yanaşmada dialoqu deyil, monoloji təfəkkürü əsas götürərək konsensusdan qaçırdılar. Hər halda ötən əsrin 90-cı illərində qeyd olunan problem ictimai təfəkkürün prioriteti kimi demək olar ki, bütün sferaları əhatə edirdi və obyektiv olaraq qeyd edək ki, bu proses bütövlükdə postsovet Respublikaları üçün də ümumi xarakterik hal idi. Lakin dövlətçilik tarixinin yalnız xətti inkişafını deyil, eyni zamanda onun bütöv və tam halında dərk edilərkən əsl tarixin yarandığını qəbul edən dühalar çox gözəl bilirdilər ki, tarixin "yanlışlıqları" da", "doğruları" da küll və bütöv halında dərk olunan anda tarixə baxış obyektiv olur. Bu baxımdan mahir siyasətçi və ideoloq ulu öndər Heydər Əliyev müstəqilliyimizin keçməkeşli illərində bəzi qüvvələrin tarixə baxışlarını obyektiv olaraq tənqid edərək qeyd edirdi: *"Sovet İttifaqı dağıldıqdan sonra yeni meydana çıxmış bəzi qüvvələr hesab edirdilər ki, 1920-ci ildən sonra Azərbaycan tamam batıb, ta 1990-cı ilə qədər Azərbaycan bərbad olub və s. Xeyir, belə deyil, tarix bunu göstərir, 1920-ci ildən 1992-cı ilin dekabrına qədər Azərbaycanda kommunist rejimi olub, sovet hakimiyyəti qurulubdur. Ancaq Azərbaycan Sovet Sosialist Respublikası müstəqil respublika olubdur"* [1, s.41]. Bununla Ulu öndər bir növ "sovet dövrü problemini" bilavasitə tarix səhnəsindən silib atmaq istəyənlərə izah edirdi ki, tarix yalnız tam halında dərk olunarkən tarix olur. Yəni tarixin elə məqamları olur ki, burada ümumi tendensiyada, bəzən dövlətçilik baxımından "büdrəmiş" xalqların taleyində ciddi məsələlərin, qərarların bir istiqamətdən – dar çərçivədən qiymətləndirilməsiylə tarixə obyektiv qiymət verilə bilməz. Daha sonra böyük siyasi düha Heydər Əliyev öz çıxışını davam etdirərək qeyd edirdi: *"Əgər Azərbaycan Rusiya Federasiyası, Ermənistan, Gürcüstan respublikaları ilə və Türkiyə ilə 1921-ci ilin oktyabr ayında Qars müqaviləsini imzalayıbsa, demək, o vaxt Azərbaycan Respublikası öz müqəddəratını həll etmək yolunda çox müstəqil olubdur. Biz bunu unutmamalıyıq, tariximizi qaralamamalıyıq. Biz tariximizin qara tərəfini də, ağ tərəfini də göstərməliyik, faciəni də, nailiyyəti də, uğurları da göstərməliyik, İnsanların çəkdiyi zəhməti itirmək olmaz*" **[1, s.41].** Xüsusi qeyd etmək lazımdır ki, H.Ə. Əliyevin tarix barədə baxışları bütövlükdə tamı ifadə edən bir baxışlar sistemi olduğundan onun dövlətçilik

tariximizə münasibəti və hakimiyyətdə olduğu dövrdə milli birliyə, ərazi bütövlüyümüzə, iqtisadiyyata, sənaye və sosial-mədəni sahəyə də diqqəti bu baxışlar sistemindən qaynaqlanırdı. Təsadüfi deyildir ki, sovet Azərbaycanının məhz 1969-1982-ci illər dövrünü mütəxəssislər Azərbaycanın XX əsr mədəniyyət, incəsənət, təhsil, elm, iqtisadiyyat və s. sahələrdə İntibah dövrü kimi xarakterizə edirlər. Məsələn, böyük qürur hissi ilə qeyd etmək lazımdır ki, Prezident İlham Əliyevin qeyd etdiyi kimi *"Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir"* [2].

Yuxarıda qeyd edilən tezisdən açıq-aşkar görünür ki, Ulu öndər H.Ə.Əliyevin ictimai-siyasi fəaliyyəti və siyasi irsinin öyrənilməsi həm də, məhz müasir Azərbaycan tarixinin öyrənilməsi deməkdir. Xüsusi qeyd etmək lazımdır ki, hər şeydən əvvəl Ulu öndər milli və dövlətçilik strategiyasının banisi, mahir ideoloq və strateq idi ki, bu da onu – böyük tarixi Lideri mübaliğəsiz desək, XX əsr dünya miqyasında daima elmi-nəzəri cəhətdən araşdırılmalı olan fenomen şəxsiyyətlər statusunda saxlamaqdadır. İngiltərədə Uniston Çörçil, Fransada Şarl de Qol, qardaş Türkiyədə Atatürk öz xalqları üçün hansı uğurları təmin edibsə, məhz Heydər Əliyevin dahiliyi ondadır ki, həmin, bu böyük tarixi şəxsiyyətlərin etdiklərindən də daha çoxunu Azərbaycan xalqı və dövlətçiliyi üçün etmişdir. Məhz o, Azərbaycançılıq ideologiyasını yaratmış, onun milli, – dil, din, mədəniyyət, hərb sənəti, iqtisadiyyat, təhsil, elm və s. kimi komponentlərinin müasir özəyini, modern və davamlı inkişafını təsbit etmişdir. Bu baxımdan XX əsr sovet Azərbaycanın tarixinə nəzəri və praktiki anlamda yanaşdıqda, həm ölkənin inkişaf istiqamətlərinin müəyyən olunmasında, həm də onun mədəni, sosial, milli-mənəvi inkişafına xidmətdə olmuş Heydər Əliyev qədər ikinci bir dövlət xadimi təsəvvür etmək mümkün deyildir.

Aydındır ki, sovetlər ideologiyasının əsasını kosmopolit bir ideologiya təşkil edirdi. Lakin burada istənilən halda müsəlman respublikalarına qarşı bir ciddi fərqli siyasətində olduğu həmişə hiss olunmaqdaydı. 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katib seçildikdən sonra H.Ə.Əliyevin qarşısında aqrar bir Respublika mövcud idi. Lakin qısa bir zaman kəsimində Heydər Əliyevin işgüzarlığı, idarəetmə bacarığı, istər ölkənin aqrar sektorunda, istərsə də iqtisadi-mədəni sferalarında, sosial həyatda ciddi uğurları nəinki ölkə daxilində əks-səda yaratdı, o cümlədən, mərkəzi hakimiyyətin diqqətini cəlb etməyə başladı. Lakin o, çox gözəl anlayırdı ki, iqtisadi inkişafla yanaşı milli-mənəvi dəyərlərin, milli düşüncə tərzinin inkişafı da, həmin dövrlərdə ən ciddi vəzifə kimi onun missiyasına daxildir. Bu həm də onunla bağlı idi ki, Heydər Əliyev məhz ruhən millətinə, xlqına bağlı adam idi, təfəkkürcə tarix və onun inkişaf tendensiyasını bir tarixçi və tarixin memarı kimi düzgün qiymətləndirirdi. Heydər Əliyev çox gözəl bilirdi ki, xalqın tarixi şüurunda, onun milli varlığında, yad təsirlərin nəticəsində ciddi özgələşmələr baş vermişdir, məhz bu istiqamətdə onun milli siyasəti həyata keçirmək, dilimizi, dinimizi, mənəvi dəyərlərimizi, mədəniyyətimizi yenidən dirçəltmək, təşkilatı anlamda yenidən reformasiya etmək kimi bir müqəddəs vəzifə dururdu. Sovet ideologiyasının müxtəlif nəzəri-praktik qatlarına yaxşı bələd olan Ulu öndər hələ o zamandan Azərbaycanlıların potensialını üzə çıxarmaq, onu sovetlər miqyasında tanınmış bir xalqa çevirmək üçün son dərəcə ciddi işlər aparırdı. Lakin indi bir çoxları üçün bu məsələ asan görünə bilər, ancaq həmin dövrdə bu siyasəti həyata keçirmək qədər ikinci bir çətin və riskli hadisəni təsəvvür etmək belə mümkün deyildir. Məsələ onda idi ki, həmin dövrdə "qırmızı terrorla" bərabər "erməni terroru" deyilən bir gizli silah növü də daima təhlü-

kə mənbəyi kimi Azərbaycan torpaqlarına, onun milli varlığına qarşı təhdid kimi çıxış edirdi. Bu baxımdan həmin ziddiyyətli epoxada Ulu öndərin fəaliyyətinin əsas hissəsindən birini Ermənistanın Azərbaycana qarşı müxtəlif üsullardan istifadə edərək irəli sürdüyü ərazi iddialarını dəf etmək idi. Ulu Öndər bu mübarizəni müdrikcəsinə son detallarına kimi görür və düzgün təsbit edərək qiymətləndirirdi. Məsələn, o, haqlı olaraq Ermənistan və erməni millətçilərinin hiylə edərək, müxtəlif üsullarla ərazilərimizin xəritələrdə öz əraziləri kimi göstərməsində çevik olduqlarını qeyd edir, bizim nümayəndələrimizin isə bəzi halda onların qarşısının alınmasında sayıq olmadıqlarını vurğulayırdı. Ulu öndər belə faktlardan birini 14 yanvar 1998-ci ildə Azərbaycan Respublikası Konstitusiya komissiyasının iclasında xatırlayaraq qeyd edirdi: *"Bir halda ki söhbət düşüb, mən bir tarixi faktı da çatdırmaq istəyirəm,- baxmayaraq ki, bu, artıq məlumdur. Bəli, 1968-ci ildə 1969-cu ildə Ermənistan Azərbaycana qarşı yenə də torpaq iddiaları ilə çıxış edibdir. Onlar Zaqafqaziya Kartoqrafiya İdarəsinin, gərək ki, 1932-ci ildə yaratdığı xəritələrdən o vaxt istifadə etmişdirlər. Məlumdur, - gərək ki, bunu Həsən Həsənov da bilir- o vaxt o xəritələri yaradanların da hamısı ermənilər olmuşdur və şübhəsiz ki, həmin xəritələri saxtalaşdırmişdılar. Təssüf ki, bizim tərəf də bu barədə sayıq olmayıbdır. Elə bizim millətimizə zərər vuran xüsusiyyətimiz bir də bundan ibarətdir ki, belə hallarda biz nəinki sayıq olmuruq, çevik də olmuruq. Amma təəssüf ki, müqabil tərəf bizdən sayıq da, çevik də olur, bəzən bizdən güclü də olur. Onlar bu xəritələri götürərək Azərbaycanın cürbəcür hissələrindən, Ermənistanla sərhəd olan hissələrindən torpaqların iddiasına başlamışdılar"* [1, s.42]. Lakin sevindirici hal həmin illərdə onda idi ki, H. Əliyev məhz Azərbaycan Respublikasının rəhbərliyinə gəldikdən sonra ermənilərin bu istəklərinin qarşısı çətinliklə də olsa ala bilirdi və yeri gəldikcə onların məkrli hiylələrini mərkəzin diqqətinə çatdırırdı. H. Əliyev dühasının, siyasi iradəsinin, milli təfəkkürünün böyüklüyü onda idi ki, o, Kremlin yüksək liderləri arasında da Azərbaycan xalqının maraqlarını müdafiə edə bilirdi. *"Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir"* [2].

Yuxarıda qeyd edilən faktlar bir daha onu təsdiq edir ki, rəhbərin, liderin, birinci şəxsin şəxsi keyfiyyətləri bilavasitə yüksək olduqda, o milli məfkurəni istənilən rejimlərdə qoruya, gerçəkləşdirə bilər. Həmin illərdə aydındır ki, bütün bu ideyaları həyata keçirmək asan məsələ deyildi, amma Heydər Əliyevin 1969-1982-ci illər birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrün elmi-fəlsəfi kontekstdə araşdırılması sübut edir ki, o, bu işin öhdəsində layıqincə gəlmiş və milli şüurun inkişafında fundamental mehvər qoymuşdur. Biz həmin dövrdə baş verən prosesləri, hadisələri, quruculuq, sənaye, mədəniyyət və s. layıhələrini burada statistik olaraq göstərmək imkanında olmasaq da, yalnız bir məsələni 1978-ci il Azərbaycan sovet Konstitusiyasının qəbulu zamanı dövlət dilinin Konstitusiyada Azərbaycan dili kimi qeyd olunmasını, yaxud, Cəmşid Naxçıvanski adına Hərbi Məktəbin məhz Azərbaycanda yaradılmasını, xaricə təhsil ardınca on minlərlə tələbələrin göndərilməsini və ya Xəzər dənizində "Göy Zavod" kimi tanınan tikintisinə 1.2 milyarda qədər rublun xərcləndiyi neft-axtarış-sənaye kompleksinin tikilməsini, nəhəng mədəniyyət ocaqlarının inşasını göstərməklə gələcəyə hesablanmış Heydər Əliyev dühasının miqyasını xüsusi vurğulamaq istərdik. Çoxları üçün bu faktların fəlsəfi dərki ola bilər ki, nisbətən çətin olsa da, Ulu öndər hələ o zamandan çox mahiranə şəkildə bilirdi ki, böyük millətlərin cərgəsinə qoşulmaq, millətin, xalqın, əmək qabiliyyətini, intellektual potensialını, iqtisadi gücünü, milli-mənəvi, əxlaqi-etik dəyərlərini oyatmaq, milli şüurunu oyatmaq, qabiliyyətini dünyaya göstərmək üçün ona - xalqa şərait yaratmaq lazımdır. Təsadüfi deyildir ki, tədricən bu strategiya nəticəsində *"Millətin ruhunu duyan, qabiliyyətinə bələd olan Heydər Əliyevin formalaşdırdığı özünüdərk prosesindən doğan ümummilli şüur yüksəlişinin, cəmiyyətin müxtəlif sahələrinin inkişafının ilhamverici qüvvəsi oldu və 1960-cı illərin sonları – 1980-ci illərin əvvəlləri sovet*

*Azərbaycanının tarixində intibah dövrü kimi də səciyyələndirmək olar. Respublika iqtisadiyyatının dinamik inkişaf fonunda sosial həyat xeyli yaxşılaşmışdı. Elm, mədəniyyət və incəsənət çiçəklənmə dövrünü yaşayırdı"* [4, s.8].

XX əsr sovet tarixi, tarixşünaslığı müxtəlif yöndən təqdir və ya tənqid olunsa da, bir məsələ şübhəsizdir ki, həmin dövrün fundamental tendensiyasından biri onda idi ki, heç bir vəchlə milli, dini, coğrafi və ərazi iddiaları geniş şəkildə qabardılmasın, əksinə, bütün millətlər bir "qaynar qazan" içində kosmopolitləşdirilərək "sovet milləti" formalaşdırılsın. Lakin bütün bunlar geniş kütlələr üçün hesablanmış bir nəhəng sovet layihəsi idi və daxildə şübhəsiz din kultunun qabardılmasına imkan verilməsə də, "dini mənsubluq" yaxud etnik mənsubluq istiqamətində bölgülər mövcud idi. Məsələn, qonşu Ermənistan və ya Gürcüstanla, o, cümlədən Pribaltika və b. sovet respublikaları ilə bir növ, müsəlman sovet respublikaları arasında, o cümlədən, Azərbaycanla müqayisədə həmişə üstünlük birincilərin xeyrinə aparılırdı. Ancaq H.Ə.Əliyevin Azərbaycana rəhbərliyi dövründə bir növ bu "soyuq müharibədə" dönüş yarandı və nəhəng iqtisadi layihələrinin, sənaye, təhsil, istehsal və s. müəssisələrinin də Azərbaycanda tikintisinə razılıqlar alındı. Bütün bunlara bərabər Heydər Əliyevin dahiliyi onda idi ki, o Azərbaycanın nə vaxtsa müstəqil olacağını da görür, ölkənin sanki gələcəkdə müstəqil olarkən inkişafı üçün mənəvi, iqtisadi, intellektual baza, zəmin hazırlayırdı. Bundan böyük strategiya, bundan böyük dahilik ola bilər ki, həmin dövr üçün heç mümkün də deyildi.

Müstəqillik illərində isə hər şeydən əvvəl *"təhrif olunmuş tariximizin artıq bundan sonra da təhrflərə yol verilməməsi üçün Heydər Əliyev 1997-ci ilin yanvarında Azərbaycan Milli Elmlər akademiyasının alimləri ilə görüşündə Azərbaycanın XIX-XX əsrlər tarixinin obyektiv şəkildə öyrənilməsini elmimizin qarşısında əsas vəzifələrdən biri kimi qoydu"* [4, s.9]. 90-ci illərdə ölkəmiz müstəqilliyə qovuşduqdan sonra cəmiyyətin qarşısında dayanan əsas vəzifələrdən biri ictimai-siyasi münasibətləri sağlamlaşdırmaq, müasir dəyərləri daha da inkişaf etdirməklə bərabər əsrlərin dərinliklərindən gələn milli-mənəvi dəyərlərin qorunması, identikliyin yeni çağırışlar kontekstində təsbiti ciddi aktul vəzifə kimi qiymətləndirilməkdə idi. *"Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur [2].* Təsadüfi deyildir ki, Ulu öndər daima milli-mənəvi dəyərlərimizi, identikliyimizi həmişə xatırlayarkən aşağıdakı möhtəşəm fikirlərini qeyd etmək zərurəti yaranır. Çıxışlarının birində Ulu öndər qeyd edirdi ki, *"Keçid dövrünün çətinliklərinə ağır proseslərinə baxmayaraq, biz öz tarixi keçmişimizin çox dəyərli səhifələrini qısa müddətdə aça bilmiş və xalqa göstərməyə nail olmuşuq. Xalqımızın hər bir övladı öz tarixi keçmişini, varisi olduğu mədəni irsi, daha dərindən öyrənərək böyük qürur hissi duymağa başlayır və sözsüz ki bununla fəxr edir" [4, s.6].* Daha sonra bir müdrik siyasətçi, istedadlı tarixçi, dərin etno-psixologiya bilicisi və nəhayət fenomenal dövlət başçısı kimi Heydər Əliyev dövlətçilik ənənəsi və şüurunu insanlara aşılamaq və tarixi irsimizə vətəndaşlıq borcumuzu xatırladaraq qeyd edirdi: *"Hər bir Azərbaycan vətəndaşı bu irsə layıq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dünəninə, həm də bugününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşmalıdır"[4. s.6].* Bütün bunlar milli təfəkkürdə gələcəyin formalaşdırılması, proqnozlaşdırılması idi, məhz həmin arzuların əksəriyyəti, gələcəkdə özü qədər inandığı, özü qədər güvəndiyi bir Liderin siyasi və dövlətçilik strategiyasında dünyaya bəyan ediləcək, həyata keçiriləcəkdi.

Tarixdən bəllidir ki, Qarabağ problemi yeni deyildir və bu problemin əsas hissəsi xüsusilə XX əsrin payına düşür. XIX yüzilliyin əvvəllərində 9 min kvadrat kilometr Azərbaycan əra-

zisində məqsədli şəkildə *"erməni vilayəti" yaradıldıqdan sonra, dünyanın müxtəlif bölgələrində yaşayan ermənilər bu ərazilərə köçürüldü, qədim Azərbaycan torpaqları zaman-zaman, hissə-hissə həmin quruma birləşərək, artıq keçən əsrin əvvəllərində 29 min kvadrat kilometirlik bir ərazimizdə "Ermənistan dövləti" yaradıldı" [4, s.6].* XX əsrin sovet dövrü şübhəsiz Azərbaycan xalqı üçün ciddi problemlərdən keçmişdir. Məsələ ondadır ki, Ulu öndərin 1969-cu ildə hakimiyyətə gəlişinə qədər ermənilərin istər Xalq Cümhuriyyəti illərində, istərsə də sovetlər birliyində *"milli məsələdə"* uğurları çox olmuşdur. Lakin H. Ə. Əliyev hakimiyyətinin birinci dövrü bu baxımdan istisna təşkil edir. Və bu dahi şəxsiyyət istər siyasi hakimiyyətinin sovet dövründə, istər sovetlərin rəhbər vəzifəsindən uzaqlaşdırıldığı dövrdə, istərsə də *"22 iyul 1990-cı ildə doğma şəhəri Naxçıvana gələndən az sonra da Naxçıvan seçiciləri Azərbaycan rəhbərliyinin və onun Naxçıvandakı funksionerlərinin təzyiqinə baxmayaraq fərdi təqaüdçü, heç bir vəzifə və imtiyaza malik olmayan Heydər Əliyevi həm Azərbaycan Respublikası Ali Sovetinə, həm də Naxçıvan MSSR Ali Sovetinə seçərək böyük xilaskarlıq missiyası üçün ona yol açarkən" və müstəqillik illərinin çiçəklənmə dövründə də bilavasitə "erməni məsələsinə"* barışmaz münasibət bəsləmişdir və bu problemin dəf edilməsi strategiyasını bilavasitə hazırlamışdır [3, s.22]. Məsələn, mahir strateq "Heydər Əliyev "erməni məsələsi"nə münasibətini çıxışlarının birində bu çür şərh etmişdi: *"1969-cu il iyulun 14-dən 1982-ci il dekabrın 3-nə kimi Azərbaycan KP MK-nın birinci katibi olmuşam. Bu müddətdə Azərbaycan ərazisinin bir qarışı da Ermənistana verilməyib. Bu, faktdır. Baxmayaraq ki, Ermənistan tərəfindən ayrı-ayrı hallarda torpaqların alınmasına cəhdlər olurdu... Açıq heç nə demirdilər, bəzi rəhbər işçilər vasitəsiylə mənə çatdırırdılar ki, biz gərək Azərbaycanla Ermənistan xəritəsini dəqiqləşdirək, guya 1920-ci illərdə burada müəyyən səhvlər buraxılıb. Mən isə hamıya deyirdim ki, bizim sərhədlərimiz məlumdur və heç nəyi dəyişdirməyə ehtiyac yoxdur. Yadımdadır Kəlbəcər rayonu ilə sərhəddə qızıl mədəni var idi, orada qızıl axtarmaq bəhanəsi ilə ermənilər bizim torpağa keçmişdilər. Bunu bilən kimi Respublika Nazirlər Sovetinə, Kəlbəcər rayon rəhbərliyinə göstəriş verdim ki, yubanmadan onları çıxartsınlar və biz məsələni həll etdik" [4, s.151].*

Beləliklə, yuxarıda aparılan tədqiqatdan bir daha aydın oldu ki, Heydər Əliyevin siyasi strategiyasında tarixə münasibət, identikliyin təsbiti, milli maraqların qorunması, davamlı inkişaf və s. məsələlər, prioritet təşkil etsə də onun əsas strateji məqsədlərinin içərisində ərazi bütövlyünün qorunması, suverenliyin bərpası, ölkənin iqtisadi, mədəni, hərbi, intellektual və s. potensialının artırılması da həmişə prioritet təşkil etmişdir. Eyni zamanda Heydər Əliyevin dahiliyi onda idi ki, o, tarixə qiymət verərkən mənfi halların da, müsbət məqamların da obyektiv şəkildə qiymətləndirilməsinin tərafdarı kimi tarixi ədaləti qorumağı tövsiyə edirdi. Bu baxımdan o, sovet Azərbaycanının uğurlarının sovetlərin tərkibində olduğu üçün birmənalı şəkildə inkarını haqlı olaraq tənqid edir və orada baş verən müsbət məqamların da qeyd olunmasını istəyirdi. Şübhəsiz bu baxış tarixə fəlsəfi baxışdır və onun nəzəri interpretasiyası həm vacib, həm də zərurət təşkil edir. Ulu öndərin sözləri ilə desək: *"böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan ölkəmizin həm dününinə, həm də bugününə, həm də gələcəyinə dərin məsuliyyət hissi ilə yanaşma" [5, s.124]* hər bir azərbaycanlının, mütəxəssisin, ziyalıların, Azərbaycan vətəndaşının borcu olmalıdır. Bu strategiya bilavasitə milli ideyanın başlıca hərəkətverici qüvvəsi olmalı, milli maraqların təminatı işində əsas sütun kimi çıxış etməlidir. Çünki söhbət həm də ondan gedir ki, sonrakı tarixi şərait sübut etdi ki, həqiqətən də *"...elə tarixi şəxsiyyətlər var ki, Heydər Əliyev kimi, dövlət yaradır və onu parçalanmadan qoruyaraq stabilləşdirir və elə şəxsiyyətlər də var ki, onların təyinatı və böyüklüyü bu stabilliyi qorumaq, onu modernləşdirmənin, ölkənin "yenidən format edilməsinin", sivilizasion irəlləyişinin əsasına, bazasına çevirməkdən ibarətdir"[5, s.124].* Bu tezis bir daha onu təsdiq edir ki, tarix yalnız tam halında qəbul edilərkən, interpretasiya olunarkən canlı və obyektiv tarix olur.

Nəticə olaraq bir daha sonda qeyd edə bilərik ki, 44 günlük Vətən Müharibəsi və 19 sentyabr 2023-cü il tarixlərində qazanılmış əbədi qələbə sübut etdi ki, dövlətin liderinin milli

strategiyası, yüksək zəkası, dönməz iradəsi milli təfəkkürü *"yenidən formatlaşmaya"* düzgün hesablananda o, həm öz ərazi bütövlüyünü, həm də beynəlxalq hüququn təmin edilmə vəzifəsini, identikliyin təminatı işini uğurla həyata keçirə bilər. Biz bu hadisələrin canlı şahidi olmaqla, həm də tarixin şərhini verməyə cəhd edərkən və ya olsun ki, onun deskriptiv təsviri ilə məşğul olarkən bir daha əminliklə qeyd edə bilərik ki, məhz 44 günlük Vətən Müharibəsi və nəticə olaraq 2023-cü ilin oktyabrın 15 də Xankəndində Azərbaycanın Ali Baş Komandanı İlham Əliyevin bayrağımızı ucaltması tarixin fəlsəfi dərki baxımından dövlətçilik şüurumuzun, ənənəvi və modern identikliyimizin, mədəni, milli, tarixi irsimizin bərpası, yeni tarixi mərhələnin mehvəridir. Real hadisələrin dinamikası və nəzəri tədqiqatlar təsdiq edir ki, bu tarixi bərpanın əsasları Ulu öndərin milli maraqları, identikliyi təsbit etdiyi strategiyasında, Prezident İlham Əliyevin dövlətçilik fəlsəfəsində öz təsbitini və təsdiqini taparaq, *milli identikliyin yeni tarixi mərhələyə atılışını*, tarixin yeni çağırışlarına cavab konsepsiyası kimi formalaşdıraraq həyata keçirmiş və hal-hazırda bu nəhəng strategiya uğurlu şəkildə Azərbaycan dövlətçiliyinin prioriteti kimi davam etdirilməkdədir.

**Ədəbiyyat siyahısı**


1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. 14-cü kitab dekabr, 1997 - fevral, 1998 . PDF
2. Əliyev İlham. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı https://president.az/az/articles/view/57413
3. Mədətli Eynulla. Heydər Əliyevin "Bir Millət – iki dövlət düsturu" Azərbaycan - Türkiyə birliyinin yol xəritəsidir. // Heydər Əliyev ideyaları və müasir dövr respublika elmi konfransının materialları. I hissə. Naxçıvan, "Tusi", 2023 s. 206 səh. s. 22-29.
4. Məmmədov Nazim. Qarabağın inkişaf konsepsiyası [1960-cı illərin sonları –1980-ci illərin əvvəlləri], Bakı, "Optimist" MMC-2023, 304 s.
5. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı- "Təknur"-2012. 216. s.
6. Yaspers K. Tarixin mənası və təyinatı, Bakı, "Zəkioğlu" nəşriyyatı, 2008, 764 s.
7. Zeynalov, Ş.Ə. "Dialoq mədəniyyəti və müasirlik". Bakı "Avropa" nəşriyyatı, 2020 s. 330 s.


**Summary**

**Sholat Zeynalov, Zeynalli Nargiz**

**The ratıonal attitude of the great leader H.A. Aliyev to the "problem of the soviet era" – issues of history and identity**

The article is dedicated to the 101st anniversary of the birth of Great Leader Heydar Aliyev. Referring to the political legacy, historical views, and leadership experience of Great Leader Heydar Aliyev, the study notes that the development paradigm of modern Azerbaijan, ensuring national interests is directly related to Heydar Aliyev's genius and his management experience. Theoretical and practical analyzes prove that the past 30 years of Azerbaijan's historical experience and the positive dynamics of geostrategic changes in the region were carried out by Heydar Aliyev during the leadership of the country, either for the first time during the "Soviet era" or for the second time, which was characterized as the era of getting rid of chaos in the first years of independence. it is about wise policy. The fact is that this policy is currently being pursued with the highest dynamics as the statehood philosophy and global strategy of the head of the country, Commander-in-Chief Ilham Aliyev. It is noted in the study that precisely as a result of this global

strategy, Azerbaijan has now restored its sovereignty and is successfully developing its statehood, preserving its history, heritage and traditions.

***Keywords:*** *Leader, national interests, view of history, "Soviet period", theoretical approaches, dialogue.*

**Резюме**

**Шолат Зейналов, Наргиз Зейналлы**

**Рациональное отношение великого лидера Г.А.Алиева к «проблеме советской эпохи» – вопросы истории и идентичности**

Статья посвящена 101-летию со дня рождения великого лидера Гейдара Алиева. Ссылаясь на политическое наследие, исторические взгляды и лидерский опыт великого лидера Гейдара Алиева, в исследовании отмечается, что парадигма развития современного Азербайджана, обеспечение национальных интересов напрямую связана с гениальностью Гейдара Алиева и его управленческим опытом. Теоретический и практический анализ доказывает, что последние 30 лет исторического опыта Азербайджана и положительная динамика геостратегических изменений в регионе были осуществлены Гейдаром Алиевым во время руководства страной либо впервые в «советскую эпоху», либо за второй раз, который характеризовался как эпоха избавления от хаоса в первые годы независимости, речь идет о мудрой политике. Дело в том, что эта политика в настоящее время проводится с высочайшей динамикой, как философия государственности и глобальная стратегия главы страны, Главнокомандующего Ильхама Алиева. В исследовании отмечается, что именно благодаря этой глобальной стратегии Азербайджан сегодня восстановил свой суверенитет и успешно развивает свою государственность, сохраняя свою историю, наследие и традиции.

***Ключевые слова:*** *Лидер, национальные интересы, взгляд на историю, «советский период», теоретические подходы, диалог.*